**Azərbaycan Respublikası nəqliyyat-yol kompleksinə daxil olan sahələr üzrə 2005-ci ilin yekunları haqqında**

**M Ə L U M A T**

Ölkə iqtisadiyyatının müxtəlif sahələrinin dinamik inkişafı ilə yanaşı nəqliyyat sektorunda ilbəil davamlı inkişaf, 2005-ci ildə də müşahidə olunmuşdur.

Belə ki, iqtisadiyyatın bütün sahələrində 2005-ci ildə 161,9 milyon ton və ya 2004-cü ilə nisbətən 7,0 faizdən çox yük daşınmışdır.

Qeyri-nəqliyyat müəssisələri və boru kəmərləri vasitəsilə daşınan yüklər istisna olunmaqla nəqliyyat-yol kompleksi qurumları və fiziki şəxslər tərəfindən 2005-ci ildə 109,5 milyon ton, əvvəlki ilə nisbətən isə 10,4 faiz və yaxud 10,3 milyon ton çox yük daşınmışdır.

Yük daşımalarının 23,9 faizi və yaxud 26,2 milyon tonu dəmir yolu, 12,5 faizi və yaxud 13,7 milyon tonu su, 0,07 faizi və yaxud 0,074 milyon tonu hava, 63,5 faizi və yaxud 69,5 milyon ton avtomobil nəqliyyatı vasitəsi ilə həyata keçirilmişdir.

Hesabat ilində dəmir yolu nəqliyyatında yük daşınması əvvəlki ilə nisbətən 26,8 faiz, su nəqliyyatında 3,6 faiz, avtomobil nəqliyyatında 6,6 faiz artmış, hava nəqliyyatında isə 1,4 faiz azalmışdır.

Yük dövriyyəsi əvvəlki ilin müvafiq dövrünə nisbətən 15,3 faiz artaraq 24,9 milyard ton. km təşkil etmişdir. Dəmir yolunda yük dövriyyəsi 26,4 faiz, su nəqliyyatında 11,1 faiz, avtomobil nəqliyyatında 8,2 faiz artmış, hava nəqliyyatında isə 0,5 faiz azalmışdır.

Sərnişin daşınması 2004-cü ilə nisbətən 4,5 faiz artmış və 852,7 milyon sərnişin təşkil etmişdir. Bu göstərici dəmir yolunda 5,1 faiz, hava nəqliyyatında 11,5 faiz, avtomobil nəqliyyatında 4,5 faiz artmış, su nəqliyyatında isə 6,7 faiz azalmışdır.

Sərnişin dövriyyəsi əvvəlki ilə nisbətən 1,8 faiz artaraq 12,8 milyard sərnişin. km təşkil etmişdir.

Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı və yükləmə boşaltma işləri həyata keçirən digər müəssisələr tərəfindən 2005-ci ildə 8,3 milyon ton və ya ötən illə müqayisədə 2,5 faiz az yükləmə-boşaltma əməliyyatları yerinə yetirilmişdir. Bu ildə Limandan keçən yüklərin həcmi 2,9 faiz, idxal yüklərin həcmi 31,6 faiz azalmış, ixrac yüklərin həcmi isə 41,0 faiz artmışdır.

Hesabat ilində Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində 46,7 milyon ton və ya ölkənin nəqliyyat-yol kompleksində həyata keçirilən bütün daşımaların 42,6 faizi qədər yük daşınması və onların 53,0 faizi dəmir yolu, 29,0 faizi avtomobil, 18,0 faizi isə su nəqliyyatı vasitəsilə həyata keçirilməsi gözlənilir. Su nəqliyyatı istisna olmaqla digər nəqliyyat növlərinin dəhliz vasitəsilə yük daşınmasında artım müşahidə olunmaqdadır. Dəhlizdə yük və sərnişin daşınmasından 214,5 milyon manat gəlir əldə edilmiş və onun 57,9 faizi dəmir yolu, 23,9 faizi su, 18,2 faizi avtomobil nəqliyyatının fəaliyyəti hesabına yaranması gözlənilir.

2003-cü ilin oktyabrın 1-dən 2006-cı ilin yanvarın 1-dək nəqliyyat-yol kompleksinə daxil olan dövlət qurumları tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində 4855, o cümlədən 1342 müvəqqəti iş yerləri açılmışdır. Onlardan 1552 iş yeri 2005-ci il ərzində açılmışdır.

Hesabat ilində ümumi istifadədə olan avtomobil yollarının təmiri və saxlanmasına 30,0 milyon manat və yaxud 2004-cü ilə nisbətən 2 dəfəyə yaxın çox, xarici investisiya hesabına həyata keçiriləcək layihələr üzrə Azərbaycan tərəfinin payı və daxili investisiyalar hesabına tikilən obyektlər üçün 25,7 milyon manat və yaxud keçən ilə nisbətən 2 dəfədən çox məbləğdə vəsait nəzərdə tutulmuş və istifadə edilmişdir.

2005-ci il ərzində Yol İstismar İdarələrinin cücü ilə 20,0 milyon manat vəsait hesabına 516,7 km avtomobil yolları təmir olunmuşdur.

Podrat təşkilatların gücü ilə avtomobil yollarının əsaslı təmiri, yenidən qurulması, körpülərin tikintisi və bərpası işləri aparılmışdır.

Belə ki, uzunluğu 50 kilometr olan Lənkəran-Lerik avtomobil yolu əsaslı təmir olunaraq istismara verilmiş, Masallı-Yardımlı avtomobil yolunda 476,2 min

manatlıq, Bakı-Şamaxı-Yevlax avtomobil yolunda 100,5 min manatlıq, Muğanlı-İsmayıllı avtomobil yolunun 0-13 km-də torpaq sürüşmələrinin qarşısının alınması tədbirlərinin həyata keçirilməsində 124,3 min manatlıq, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun təmirində 912,8 min manatlıq iş həcmi yerinə yetirilmişdir.

Qazax şəhərinə giriş yolunda Ağstafa çayı üzərində, Qəbələ rayonu ərazisində Dəstəmaz çayı üzərində və Astara rayonu ərazisində Pensər çayı üzərində yeni körpülər tikilmiş, Lənkəran rayonun ərazisindəki Boladı çay üzərində, Salyan-Əli Bayramlı avtomobil yolunda kanal üzərində və Kürdəmir rayonu ərazisində Ağsu çay üzərində qəza vəziyyətində olan mövcud körpülər bərpa edilmişdir.

Ağdaş-Zorağan avtomobil yolunun 11-12 km-də Quru dərə üzərində və Şamaxı rayonu ərazisində Pirsaat çayı üzərində yeni körpülərin tikintisinə başlanmışdır.

Hesabat ilində Bakı-Ələt avtomobil yolunun əsaslı təmiri və Biləsuvar-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunda yenidənqurma işləri davam etdirilmiş və müvafiq olaraq 1,04 və 1,51 milyon manat dəyərində iş həcmi yerinə yetirilmişdir.

Dünya Bankının ayırdığı kredit və dövlət büdcəsi vəsaiti hesabına Gəncə-Qazax avtomobil yolunun yenidən qurulmasında 13,9 milyon manat dəyərində iş həcmi yerinə yetirilmiş, 2005-ci ilin fevral ayında yolun Gəncə-Şəmkir hissəsi istismara verilmişdir.

Hacıqabul-Kürdəmir avtomobil yolunun reabilitasiyası layihəsinin həyata keçirilməsində 2,16 milyon manat dəyərində iş həcmi yerinə yetirilmişdir.

Azərbaycan Dövlət Dəmir Yolunda çən vaqonlarının yuyulması üçün Biləcəri yuyucu stansiyasında layihə dəyəri 5,6 milyon manat təşkil edən yenidənqurma işləri başa çatdırılmış, 3417 yük və 373 sərnişin vaqonları depo təmiri, 1209 yük və 64 sərnişin vaqonları isə əsaslı təmir olunmuşdur.

Xəzər Dəniz Gəmiçiliyində “ Şah İsmayıl Xətai” tankeri tikilərək istismara verilmişdir.

Hesabat ilində Azərbaycan Hava Yolları Dövlət Konserni tərəfindən 2 ədəd sərnişin təyyarəsi alınmış, Gəncə Hava Limanında yenidənqurma işləri davam etdirilmişdir.

Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının Bakı dəniz vağzalında və bərə keçid körpüsündə əsaslı təmir işləri başa çatdırılmış, hal-hazırda tamamlama işləri həyata keçirilir.

Avtomobil nəqliyyatının işini tənzimləyən müvafiq tədbirlər həyata keçirilmiş, özəl sektorun vəsaiti hesabına tikintisi 2004-cü ildə başlanılmış Bakı Beynəlxalq Avtovağzalı kompleksində işləri davam etdirilmişdir. Özəl qurumlar tərəfindən hesabat dövründə Respublikaya 55 ədəd iri tutumlu sərnişin avtobusları gətirilmiş və istismara buraxılmışdır.

**Azərbaycan Respublikası nəqliyyat-yol kompleksinə daxil olan sahələrin 2005-ci ilin yanvar-dekabr ayları ərzində əsas istehsal və iqtisadi göstəriciləri**

| № | Göstəricilər | Ölçü vahidi | 2005-ci ilin yanvar-dekabr aylarında | 2004-cü ilin müvafiq dövründə | Keçən ilin müvafiq dövrünə nisbətən, %-lə | 2005-ci il dekabr ayında | 2004-cü ilin müvafiq ayında | 2005-ci ilin dekabr ayı 2004-cü ilin dekabr ayına nisbətən, %-lə |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | **Yük daşıma** | min. ton | **109474,3** | **99168,7** | **110,4** | **11269,2** | **9643,6** | **116,9** |
| | o cümlədən: | | | | | | | |
| | dəmir yolu | | 26201,0 | 20671,2 | 126,8 | 2699,0 | 1815,7 | 148,6 |
| | su | | 13681,4 | 13208,7 | 103,6 | 1278,0 | 985,2 | 129,7 |
| | hava | | 74,1 | 75,1 | 98,6 | 4,5 | 6,2 | 72,6 |
| | avtomobil | | 69517,8 | 65213,7 | 106,6 | 7287,7 | 6836,5 | 106,6 |
| 2 | **Sərnişin daşıma** | min. nəfər | **852657,5** | **816079,6** | **104,5** | **74556,9** | **71330** | **104,5** |
| | o cümlədən: | | | | | | | |
| | dəmir yolu | | 5509,7 | 5241,0 | 105,1 | 475,5 | 427,3 | 111,3 |
| | su | | 18,2 | 19,5 | 93,3 | 1,5 | 1,2 | 125,0 |
| | hava | | 1219,3 | 1093,8 | 111,5 | 105,2 | 87,6 | 120,1 |
| | avtomobil | | 845910,3 | 809725,3 | 104,5 | 73974,7 | 70814 | 104,5 |
| 3 | **Yük dövriyyəsi** | mln.ton km | **24895,7** | **21586,8** | **115,3** | **2708,5** | **2277,5** | **118,9** |
| | o cümlədən: | | | | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | dəmir yolu | | 9524,0 | 7536,0 | 126,4 | 941,0 | 692,0 | 136,0 |
| | su | | 7522,3 | 6770,9 | 111,1 | 691,8 | 588,9 | 117,5 |
| | hava | | 313,3 | 314,8 | 99,5 | 22,7 | 23,3 | 97,4 |
| | avtomobil | | 7536,1 | 6965,1 | 108,2 | 1053,0 | 973,3 | 108,2 |
| 4 | **Sərnişin dövriyyəsi** | mln.sər. | **12754,0** | **12525,8** | **101,8** | **582,2** | **1102,7** | **52,8** |
| | o cümlədən: | | | | | | | |
| | dəmir yolu | | 881,1 | 789,4 | 111,6 | 80,0 | 65,0 | 123,1 |
| | su | | 6,9 | 7,4 | 93,2 | 0,6 | 0,5 | 120,0 |
| | hava | | 1587,3 | 1450,3 | 109,4 | 140,2 | 117,2 | 119,6 |
| | avtomobil | | 10892,1 | 10278,7 | 106,0 | 974,8 | 920,0 | 106,0 |
| 5 | **Limanda yükləmə-boşaltma işləri** | min. ton | **8311,0** | **8523,6** | **97,5** | **618,6** | **667,2** | **92,7** |
| | o cümlədən: | | | | | | | |
| | ixrac yükləri | | 578,3 | 410,1 | 141,0 | 95,3 | 35,7 | 2,6 d |
| | idxal yükləri | | 312,6 | 456,9 | 68,4 | 33,5 | 24,0 | 139,6 |
| | kabotaj yüklər | | 21,7 | 32,9 | 66,0 | 0,1 | 2,4 | 0,0 |
| | beynəlxalq tranzit yüklər | | 7397,8 | 7621,0 | 97,1 | 489,1 | 602,4 | 81,2 |

## Azərbaycan Respublikası nəqliyyat sektoruna daxil olan sahələrin 2005-ci ilin yanvar-dekabr ayları ərzində əsas istehsal və iqtisadi göstəriciləri

| № | Göstəricilər | Ölcü vahidi | 2005-ci ilin yanvar-dekabr aylarında | 2004-cü ilin müvafiq dövründə | Keçən ilin müvafiq dövrünə nisbətən, %-lə | 2005-ci il dekabr ayında | 2004-cü ilin müvafiq ayında | 2005-ci ilin dekabr ayı 2004-cü ilin dekabr ayına nisbətən, %-lə |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | **Yük daşıma** | min. ton | **128008,3** | **117313,4** | **109,2** | **12926,8** | **11259,4** | **114,8** |
| | o cümlədən: | | | | | | | |
| | dəmir yolu | | 26201,0 | 20671,2 | 126,8 | 2699,0 | 1815,7 | 148,6 |
| | su | | 13681,4 | 13208,7 | 103,6 | 1278,0 | 985,2 | 129,7 |
| | hava | | 74,1 | 75,1 | 98,6 | 4,5 | 6,2 | 72,6 |
| | boru kəməri | | 18534,0 | 18144,7 | 102,1 | 1657,6 | 1615,8 | 102,6 |
| | neft kəməri | | 11691,9 | 11588,5 | 100,9 | 1017,6 | 977,2 | 104,1 |
| | qaz kəməri | | 6842,1 | 6556,2 | 104,4 | 640,0 | 638,6 | 100,2 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | avtomobil | | 69517,8 | 65213,7 | 106,6 | 7287,7 | 6836,5 | 106,6 |
| 2 | **Sərnişin daşıma** | min. nəfər | **852657,5** | **816079,6** | **104,5** | **74556,9** | **71329,7** | **104,5** |
| | o cümlədən: | | | | | | | |
| | dəmir yolu | | 5509,7 | 5241,0 | 105,1 | 475,5 | 427,3 | 111,3 |
| | su | | 18,2 | 19,5 | 93,3 | 1,5 | 1,2 | 125,0 |
| | hava | | 1219,3 | 1093,8 | 111,5 | 105,2 | 87,6 | 120,1 |
| | avtomobil | | 845910,3 | 809725,3 | 104,5 | 73974,7 | 70813,7 | 104,5 |
| 3 | **Yük dövriyyəsi** | mln.ton km | **26431,1** | **23279,3** | **113,5** | **2850,9** | **2432,2** | **117,2** |
| | o cümlədən: | | | | | | | |
| | dəmir yolu | | 9524,0 | 7536,0 | 126,4 | 941,0 | 692,0 | 136,0 |
| | su | | 7522,3 | 6770,9 | 111,1 | 691,8 | 588,9 | 117,5 |
| | hava | | 313,3 | 314,8 | 99,5 | 22,7 | 23,3 | 97,4 |
| | boru kəməri | | 1535,4 | 1692,5 | 90,7 | 142,4 | 155,6 | 91,5 |
| | neft kəməri | | 624,4 | 650,1 | 96,0 | 49,8 | 47,5 | 104,8 |
| | qaz kəməri | | 911,0 | 1042,4 | 87,4 | 92,6 | 108,1 | 85,7 |
| | avtomobil | | 7536,1 | 6965,1 | 108,2 | 1053,0 | 973,3 | 108,2 |
| 4 | **Sərnişin dövriyyəsi** | mln.sər. | **12754,0** | **12525,8** | **101,8** | **582,2** | **1102,7** | **52,8** |
| | o cümlədən: | | | | | | | |
| | dəmir yolu | | 881,1 | 789,4 | 111,6 | 80,0 | 65,0 | 123,1 |
| | su | | 6,9 | 7,4 | 93,2 | 0,6 | 0,5 | 120,0 |
| | hava | | 1587,3 | 1450,3 | 109,4 | 140,2 | 117,2 | 119,6 |
| | avtomobil | | 10892,1 | 10278,7 | 106,0 | 974,8 | 920,0 | 106,0 |
| 5 | **Limanda yükləmə-boşaltma işləri** | min. ton | **8311,0** | **8523,6** | **97,5** | **618,6** | **667,2** | **92,7** |
| | o cümlədən: | | | | | | | |
| | ixrac yükləri | | 578,3 | 410,1 | 141,0 | 95,3 | 35,7 | 2,6 d |
| | idxal yükləri | | 312,6 | 456,9 | 68,4 | 33,5 | 24,0 | 139,6 |
| | kabotaj yüklər | | 21,7 | 32,9 | 66,0 | 0,1 | 2,4 | 0,0 |
| | beynəlxalq tranzit yüklər | | 7397,8 | 7621,0 | 97,1 | 489,1 | 602,4 | 81,2 |